ədalət.-2017.-30 mart.-S.4.



Şirxan Aranlı

## Azərbaycan bayrağım

Sən xalqımın tarixi, varlığımın özüsən,
Sən yanan ürəyimin ocağısan, közüsən,
Millətimin cahana baxan nurlu gözüsən, -
Ey nurundan zülməti, nura salan bayrağım,
Azərbaycan bayrağım!

Zamanın tufanında çox çəkilib sınağa,
Yetmiş il sinəsinə yapılsa da qadağa,
Yenə öz zamanı üçün çox dözübdü bu dağa,
Bircə kərə yüksəlib enməz olan bayrağım, -
Azərbaycan bayrağım!

Üç məna qovuşubdu üç rəngli bayrağımda,
Mavi - türkçülük axır, damarımda qanımda,
Qırmızı - tərəqqidi, qərar tutub canımda,
Yaşıl - islamiyyətim, onundur son anımda,
Üç rəmizlə bir məkanda qərarlaşan bayrağım,
Azərbaycan bayrağım!

Kölgəndə sürünənlər, indi sənə ağ olur,
Zəfərli yüksəlişin qəlblərində dağ olur,
Dalğalan ey bayrağım, xoş iqbalın çağ olur,
Hər zaman ucalıqda məğrur qalan bayrağım, -
Azərbaycan bayrağım!

Yolumuz haqq yoludur, haqqa güvənmişik biz,
Çox bəlalar görmüşük tükənməyib səbrimiz,
Yüksəlişə yol açıb, mətin, azad ölkəmiz,
Biz vətən övladıyıq, vətən bizim qəlbimiz
Şəhidlərin qanından rəngin alan bayrağım,
Azərbaycan bayrağım!
Azərbaycan bayrağım!

## Dördlüklər

Günləri aylara, sonra illərə,
Qatırıq, fənaya gedir ömrümüz.
Tanrı qismətini verib yellərə,
Sanırıq bir ömür yaşayırıq biz.

Ömrü səxavətlə yaman xərclədik,
Demədik bu nemət bir gün tükənər,
Qəflətdə yaşadıq, niyə bilmədik, -
Vədə tamamında Əzrayıl gələr.

Bu ömür payında nəyi qazandıq,
Çalışdıq, vuruşduq, bəzən yatmadıq.
Tanrı ömür payın əlli veribsə, -
Əlliyə beş yaxşı əməl qatmadıq.

Həyat oyununda şeş-beş atanlar,
Düşünmür bu oynun yeki də vardır.
Qeyrətin, mənliyin vara satanlar,
Bilmirmi dərdliyə gen dünya dardır.

Sərvətdan yarıyıb sərməst olanlar,
Söylə, əl tutdunmu kasıba, yada.
Dərdlinin dərdinə yad olan nakəs,
Anlakı yaxşılıq qalır dünyada.

Aqil dəyər verər hər günə, aya,
Qədrini gözləyər bircə anın da.
Mənasız günləri heç gəlməz saya, -
Nəmərdin ləyaqət yoxsa canında!

Ömür Tanrı payı, Tanrı neməti,
Ondan bəhrələnmək sənin işindir.
Yaxşı əməlinlə sən bu qüdrəti,
Yaşatsan, insan tək yüksəlişindir.

Düşün, yaxşı düşün ey insan oğlu,
Gəlmişik dünyaya yaşatmaq üçün.
Sözümüz düz olsun, işimiz doğru,
Gəlmədik hər kəsə daş atmaq üçün.

Düşünə bilsək ki, bircə bunu biz,
Sevincin sevincim, qəmin qəmimdir.
Onda bir döyünər, vurar qəlbimiz,
Sanarıq hər bir kəs öz həmdəmimdir.

Ataq qəlbimizdən riyakarlığı,
Tamaha qul kimi əsir olmayaq.
İnsanıq, dünyanın ali varlığı, -
Bu qədər yaxınkən, uzaq olmayaq!

Şükür kərəminə, dərd qismətinə,
Tamarzı qoymadı tanrı könlümü.
Sevinc verməsə də bol etdi qəhrin,
Yarıtdı kədərlə, qəmlə ömrümü.

Həyat nehrə kimi çalxayır bizi,
Qəlbimiz olubdu bir dərd dənizi.
Qəmin dəryasında boğulsaq da biz -
Hələ xoş günlərin görünür izi.

Ömürdə gün kimi ağlı, qaralı,
İnsan var hər günü zülmət gecədi.
Kimi də sərvətli, paylı, paralı,
Bu dünyanın işi bir bilməcədi.

Nə yaman dəyişdi zamanın üzü,
Yaxşılar yamanın əlinə baxır.
Ömrün bəlaları bezdirir bizi,
Həyatın axarı beləcə axır,
Yaxşılar yamanın əlinə baxır.

## Ömür ver Allahım, ömür ver mənə

Gül balalar, gül nəvələr xətrinə,
Hər birinin istəyinə, ətrinə,
Olmaq üçün arxa, dayaq, çətrinə,
Ömür ver Allahım, ömür ver mənə!

Nə vermisən, ömür payın bəsimdi,
Övladlarım canımdı, nəfəsimdi,
Onlar üçün qəlbim əsim-əsimdi,
Ömür ver Allahım, ömür ver mənə!

Nəvələrim boya, başa çatancan,
Uşaqlığın dərdi-sərin aşancan,
Çətin günün qayğı daşın atancan,
Ömür ver Allahım, ömür ver mənə!

Nənə-baba övladlarçün təşnəyik, -
Onsuz bizim nə günümüz, heç nəyik,
Gecə-gündüz onlar üçün dərddəyik,
Ömür ver Allahım, ömür ver mənə!

Hər birini xoşbəxt görsəm nə dərdim,
Bilərdim ki, nəyi əkdim, nə dərdim,
Belə deyib, vallah rahat ölərdim,
Ölüm ver Allahım, ölüm ver mənə!

## Sığınmışam qüdrətinə

Şükür sənin kərəminə,
Şükür sənin qüdrətinə,
İllər əvvəl çəkilməyən,
Bizi əyən,
Çəkilməz dərd dağımıza.
Şükür bu gün dərdi əyən,
Bu sevincli çağımıza.
Şükür sənin o gününə,
Şükür sənin bu gününə.
Dərddən dolan gözlərimiz,
Bu gün sevinc yaşı tökür.
İtən, solan ümidimiz,
Indi dərdin bağrın sökür.
Qadir Allah!
Diz çökürük kərəminə,
Sıgınmışıq qüdrətinə!
Cana dərdi verəndə sən,
Candan dərdi alanda sən
Budur sənin qadirliyin,
Budur sənin adilliyin.
Anla bunu qafil insan
Bu qüdrəti duya bilsən,
Danılmazdır, yaradana sadiqliyin.

## Duyğu yarpaqları

Vurulmuşam Ərdəbilin dağına,
Dağlarında qərar tutan bağına,
Yolboyu bax həm soluna, sağına,
Görəcəksən bir cənnətdi bu yerlər, -
Vurğun könlüm bu məskəni əzizlər.

***

Yaşıl libasını çəkib üzünə,
Gəlin kimi bəzənmisən a dağlar,
Cəlalından nə göz doyur nə könül,
Ayrılıram, könlüm dözmür a dağlar,
Həsrət odun məni dağlar, a dağlar.

***

Üzün dönsün, a tikanlı dirəklər,
Sədd çəkmisən bu dağların döşünə,
Ayırsan da yenə birdi ürəklər,
Zalımların məqsədi nə, işi nə?

***

Diri var kı, ölülərdən biridi,
Ölü də var, dirilərdən diridi,
İnsan oğlu, çalış, ömrü düz yaşa,
Xəcalətlə qalmayasan baş-başa.